Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər haqqında

Azərbaycan Respublikasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanununa 28 dekabr 2018-ci il tarixli dəyişikliklər edilib.

Qüvvəyə minmiş dəyişikliklərdə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron qaydada dövlət qeydiyyatına alınmasına dair müddəalar öz əksini tapıb. Belə ki, Qanunun müddəalarına əsasən yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin təsisçisinin (təsisçilərinin) istəyi ilə dövlət qeydiyyatı (yenidən təşkil nəticəsində yaranma halları istisna olmaqla) həmçinin elektron qaydada həyata keçirilə bilər. Qanun elektron dövlət qeydiyyatının adi və ya sürətli qaydada aparılmasını müəyyən edir.

Qanunun müvafiq maddəsinin keçmiş redaksiyasında təsisçi (təsisçilər) tərəfindən yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətinin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyinin internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə formasının doldurulması və ərizənin gücləndirilmiş elektron imza ilə təsdiq edilməsi müəyyən olunub.

Edilmiş dəyişikliklərdən sonra təsisçi (təsisçilər) yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətinin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Vergilər Nazirliyinin internet informasiya ehtiyatında müvafıq autentifikasiyadan keçməklə elektron ərizə formasını doldurur. Nəticə olaraq təsisçi (təsisçilər) artıq doldurulan elektron ərizə formasını gücləndirilmiş elektron imza ilə təsdiq etməkdən azaddır.

Qanuna edilən dəyişikliklərdən öncə dövlət qeydiyyatı zamanı elektron ərizəyə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin təsisçisi (təsisçiləri) tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş nizamnamə əlavə edilirdisə, hazırda nizamnamənin gücləndirilmiş elektron imza ilə təsdiqinə artıq ehtiyac yoxdur.

Bir yenilikdə ondan ibarətdir ki, adi elektron dövlət qeydiyyatı zamanı ərizənin qəbul edilməsi forması barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilən təsdiqetmə bildirişi, cəmiyyətin dövlət qeydiyyatına alındığı gün dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə, habelə sürətli elektron dövlət qeydiyyatı həyata keçirildiyi andan

sonra dövlət qeydiyyatına alınmış cəmiyyətin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi, dövlət reyestrindən çıxarışı və nizamnaməsi müraciət edənin elektron ünvanına yox, onun Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə qarşılıqlı məlumat və sənəd mübadiləsini təmin edən fərdi elektron səhifə olan elektron kabinetinə göndərilir.

Həmçinin, Qanuna edilmiş dəyişikliklərə əsasən yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət elektron qaydada dövlət qeydiyyatına alındıqdan sonra 2 (iki) iş günü müddətində qanuni təmsilçi (təmsilçilər) tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş cəmiyyətin sahibkarlıq fəaliyyətinə başlaması barədə məlumatı Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərməlidir.

Qanuna edilmiş yeniliklərdən biri də odur ki, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatı zamanı mobil nömrənin identifikasiyası məqsədilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin sorğusu mobil operatorlar tərəfindən real vaxt rejimində cavablandırılır.

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/framework/5403

http://e-qanun.az/framework/41134